# Şəhid anası köməksiz deyil



**Bu gün Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan igidlərimizin ailələri, onların əzizləri tək deyillər. Onların yanında güclü bir dövlət, sarsılmaz bir millət və daim onların qayğısını çiyinlərində daşıyan rəhbərlik var.**



Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri ilə birgə Vətən müharibəsi şəhidi Mahmud Fərman oğlu Əhmədovun ürək əməliyyatı keçirən anası Aybəniz xanımı



yaşadığı evdə ziyarət edib.

Onları öz evində görən Aybəniz ana göz yaşlarını gizlədə bilmədi. Həm qürur vardı o göz yaşlarında, həm də minnətdarlıq. "Bu gün mən özümü tək hiss etmirəm. Övladımı itirmişəm, amma dövlətimi yanımda görürəm. Bu, mənim üçün böyük təsəllidir,", deyə Aybəniz ana ürək dolusu danışdı.

Ziyarət zamanı ailənin səhhəti, yaşayış durumu və gündəlik ehtiyacları ilə yaxından maraqlanılıb. Şəhid ailələrinə göstərilən dövlət qayğısından bəhs olunub. Bildirilib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva şəhid ailələrini daim diqqət mərkəzində saxlayır, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində sistemli addımlar atılır.

Aybəniz ana da öz növbəsində göstərilən bu yüksək diqqət və qayğıya görə dövlət başçısına və onun xanımına dərin minnətdarlığını ifadə edib: "Mən təkcə şəhid Mahmudun anası deyiləm, bu xalqın anasıyam. Mənə sahib çıxan dövlətimə, Prezidentimə, Mehriban xanıma təşəkkür edirəm. Hər addımda hiss edirik ki, biz unudulmamışıq, biz sahibsiz deyilik".

İnsan övlad itkisinin yarasını heç vaxt tam bağlaya bilməz. Amma dövlətin, xalqın və rəhbərliyin şəhid analarının yanında olması onların yaralarını bir qədər də olsa yüngülləşdirir. Bu gün Aybəniz ana bir daha gördü ki, onun ocağı sönməyib. O ocaq Mahmud kimi qəhrəmanların canı bahasına yanmaqda davam edir.

Seymur Orucov da öz çıxışında vurğulayıb ki, şəhid ailələrinə diqqət və qayğı göstərmək hər birimizin mənəvi borcudur. O, belə ailələrin yalnız dövlətin deyil, bütöv cəmiyyətin əmanəti olduğunu qeyd edib.

***Q.HAMLET,***
***XQ-nin bölgə müxbiri***

**Ağstafa**